**Azərbaycan Xalq Parlamentinin**
**“Qarabağa Qayıdış” Komitəsi haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Xalq Parlamentinin (bundan sonra — AzXP) Nizamnaməsinin 6.4.3-cü maddəsinə əsasən, AzXP “Qarabağa Qayıdış” Komitəsinin (bundan sonra — Komitə) təşkili və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.

1.2. Komitə Azərbaycan Xalq Parlamentinin qərarı ilə işğaldan azad olunmuş Qarabağ bölgəsində və Azərbaycanın digər işğaldan azad edilən ərazilərində mülki həyatın bərpası, məcburi köçkünlərin və qaçqınların könüllü, təhlükəsiz və ləyaqətli qayıdışının təmin olunması ilə bağlı dövlət siyasətinə ictimai nəzarət funksiyasını yerinə yetirən ictimai-siyasi platformadır.

1.3. Komitənin hüquqları, təşkili qaydası, səlahiyyət müddəti, fəaliyyət prinsipləri, tərkibi, iclasların keçirilməsi və rəhbərliyin səlahiyyətləri AzXP Nizamnaməsi və Reqlamenti ilə tənzimlənir.

2. Komitənin funksiyaları

2.1. Qarabağa qayıdış və ərazilərin bərpası ilə bağlı AzXP-nin müvafiq sənədlərini və qərar layihələrini hazırlamaq və ya təqdim olunan layihələrə ilkin baxış keçirib rəy vermək.
2.2. İşğaldan azad olunmuş ərazilərdə məcburi köçkünlərin qayıdışı, sosial müdafiəsi, infrastrukturun bərpası, insan hüquq və azadlıqlarının təmin olunması məsələlərinə dair təkliflər hazırlamaq və AzXP-yə təqdim etmək.
2.3. Beynəlxalq təşkilatlarla əməkdaşlıq və Qarabağ bölgəsinə humanitar, iqtisadi, hüquqi dəstək layihələrinin təşviqinə dair proqramlar hazırlamaq.
2.4. Qarabağ bölgəsində həyata keçirilən dövlət və hökumət proqramlarının monitorinqi və ictimai qiymətləndirilməsini aparmaq.
2.5. Qarabağa qayıdışla bağlı ictimai rəyin öyrənilməsi və maarifləndirmə tədbirlərinin təşkili.
2.6. Qarabağ bölgəsində mədəni, sosial, humanitar və hüquqi tədbirlər planı hazırlamaq.

3. Komitənin fəaliyyət istiqamətləri

3.1. Qarabağ bölgəsində məcburi köçkünlərin və qaçqınların qayıdış mexanizminin hazırlanması və həyata keçirilməsinə ictimai dəstək vermək.

3.2. Ərazilərin minalardan təmizlənməsi prosesini, yaşayış üçün təhlükəsiz mühitin yaradılması ilə bağlı monitorinqlər aparmaq və ictimai rəy formalaşdırmaq.

3.3. Qarabağda tarixi-mədəni abidələrin bərpası və erməni vandalizminin nəticələrinin sənədləşdirilməsi və beynəlxalq aləmdə yayılması üzrə fəaliyyət göstərmək.

3.4. AzXP-nin digər komitə və qurumları ilə qarşılıqlı əlaqə və əməkdaşlıq çərçivəsində vahid siyasət formalaşdırmaq.

3.5. 27 illik işğal ərzində Azərbaycana vurulmuş ziyanın və reparasiya xərclərinin (təzminatın) hesablanması.

4. Komitənin işinin təşkili

4.1. Komitə AzXP-nin hər sessiyasının başlanmasına ən azı bir həftə qalmış iş planını təsdiq edir.

4.2. Komitənin Sədri və İdarə Heyəti AzXP Rəyasət Heyətinin Aparatı ilə birgə Komitənin işini təşkil edir, iclasların gündəliyini hazırlayır və iş planının icrasına nəzarət edir.

5. Komitənin üzvlərinin hüquq və vəzifələri

5.1. Komitə üzvləri bütün iclaslarda iştirak etmək, müzakirə olunan məsələlərə dair fikir bildirmək, təkliflər vermək və qəbul edilən qərarlara xüsusi rəy təqdim etmək hüququna malikdirlər.

5.2. Hər bir üzv Komitənin qərar və rəylərinin hazırlanmasında iştirak etməli və qəbul olunmuş qərarların icrasına kömək etməlidir.

6. Komitənin iclaslarının keçirilməsi

6.1. Komitə iclasları, bir qayda olaraq, açıq keçirilir. Zərurət yarandıqda qapalı iclaslar da təşkil oluna bilər.

6.2. Açıq iclaslara media nümayəndələri, ekspertlər, ictimai təşkilatlar və maraqlı şəxslər dəvət oluna bilər.

6.3. Qarabağ bölgəsi ilə bağlı hökumət orqanlarının, beynəlxalq təşkilatların və yerli icmaların nümayəndələri də iclaslara dəvət edilə bilər.

7. Komitənin qəbul etdiyi aktlar

7.1. Müzakirə olunan məsələlər üzrə qərar və rəylər qəbul edilir.

7.2. Hazırlanan təklif və layihələrə dair qərarlar və hesabatlar tərtib olunur.

7.3. Qərarlar üzvlərin yarıdan çoxunun lehinə səs verdiyi halda qəbul olunur.

8. Komitənin iclaslarının protokolları və stenoqramları

8.1. Komitə iclasları stenoqramlaşdırılır və protokollaşdırılır.

8.2. Protokolda:

- İclasın keçirildiyi tarix, yer və nömrəsi
- İştirak edən üzvlər və dəvət olunanların siyahısı
- Gündəlikdəki məsələlər
- Sənədlərin və çıxışların qısa məzmunu
- Səsvermə nəticələri
- Qəbul edilən aktlar qeyd olunur.

8.3. Xüsusi rəy olduqda, protokolda ayrıca qeyd edilir.

8.4. Protokolu iclasa sədrlik edən şəxs imzalayır.

9. Komitənin fəaliyyətin işıqlandırılması

9.1. Komitənin fəaliyyəti KİV-də işıqlandırılır.

9.2. İclaslar və qəbul olunan qərarlar barədə məlumatlar AzXP-nin rəsmi saytında dərc olunur.

9.3. Audio, video, foto və kino çəkilişləri Komitənin qərarı ilə aparılır.

10. Komitənin fəaliyyətin təmin edilməsi

10.1. Komitənin hüquqi, təşkilati, informasiya, kargüzarlıq və maddi-texniki təminatı AzXP Rəyasət Heyətinin Aparatı tərəfindən həyata keçirilir.

11. Komitənin işində ekspertlərin iştirakı

11.1. Qarabağa qayıdış və bərpa məsələlərində peşəkar ekspertlərin xidmətindən istifadə olunur. Ekspertlər ictimai əsaslarla fəaliyyət göstərirlər.

12. Komitənin ləğv edilməsi

12.1. Komitə, öz məqsədlərinə nail olduqda və ya AzXP Rəyasət Heyətinin qərarı ilə ləğv edilə bilər.

12.2. Komitə ləğv edildikdə, onun balansında olan əmlak və vəsaitlər Azərbaycan Xalq Parlamentinə təhvil verilir.

## 13. Yekun müddəalar

13.1. Bu Əsasnamə Komitənin fəaliyyətini tənzimləyən əsas sənəddir.

13.2. Əsasnamədə dəyişikliklər Komitənin iclasında səs çoxluğu ilə qəbul olunur və AzXP tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

13.3. Əsasnamənin bütün müddəaları AzXP Nizamnaməsi və Reqlamenti ilə ziddiyyət təşkil etməməlidir.